http://www.amu.edu.az

# Təbib

Təsisci: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 - cü ildən çıxır. № 17 (1592) 15 oktyabr 2014 - cü il Qiyməti 40 qəpik

# Bakıda IV Beynəlxalq Humanitar Forum keçirilib

**Oktyabrın 2-də Heydər Əliyev Mərkəzində IV Bakı Beynəlxalq Humanitar Forumu keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Forumun rəsmi açılış mərasimində iştirak ediblər.

Bakı Beynəlxalq Humanitar Forumu ən geniş humanitar əməkdaşlıq məsələlərinin müzakirə edildiyi nüfuzlu bir məkandır. Mədəniyyətlər, sivilizasiyalar və konfessiyalar arasında zəngin əməkdaşlıq ənənələri olan Azərbaycan bu formatda tədbirlərin keçirilməsi üçün ideal yerdir.

Forum XXI əsrdə bəşəriyyətin qarşısında duran qlobal çağırışlara cavab axtarmaq, humanitar əməkdaşlıqla bağlı ən mühüm məsələlərə dair geniş spektrli dialoqlar, fikir mübadilələri və müzakirələr aparmaq üçün beynəlxalq miqyasda nüfuzlu elmi-siyasi platformadır.

Dövlətimizin başçısı Forumun açılışında nitq söylədi.

**Azərbaycan Prezidenti İlham Əliyevin nitqi**

- Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Bu gün Bakı Beynəlxalq Humanitar Forumu öz işinə başlayır. Forumun bütün iştirakçılarını səmimiyyətlə salamlayıram. Bu gün Forumda 60-dan çox ölkədən 500-ə yaxın qonaq iştirak edir. Bütün qonaqlara “Xoş gəlmisiniz” deyirəm.

(davamı səh. 2-də)




## BU SAYIMIZDA




**IV Bakı Beynəlxalq Humanitar Forumu çərçivəsində “Molekulyar biologiya və biotexnologiyanın nailiyyətləri: nəzəriyyədən təcrübəyə” mövzusunda “dəyirmi masa” keçirilib**

**2011-2014-cü illərdə rezidenturaya qəbulun nəticələri müzakirə olunub** 6




**Tədris-Terapevtik Klinikada Trombosit toplamağa imkan verən yeni cihaz quraşdırılıb**

**Nobel mükafatçıları Azərbaycan Tibb Universitetində** 4



**TƏHSİL NAZİRLİYİNİN NÜMAYƏNDƏLƏRİ 600-DƏN YUXARI BAL TOPLAYAN I KURS TƏLƏBƏLƏRİ İLƏ GÖRÜŞÜBLƏR** 6

**Attestasiya Komissiyasının üzvləri ilə görüş olub** 7



(əvvəli səh. 1-də)

# Bakıda IV Beynəlxalq Humanitar Forum keçirilib

Forumun keçirilməsi çox əlamətdar hadisədir. Artıq bu, gözəl ənənəyə çevrilib. Forum dördüncü dəfədir ki, keçirilir. Bu, əslində onu göstərir ki, belə müzakirələrə böyük ehtiyac var. Dünyada gedən proseslər, bəzi hallarda narahatedici məqamlar tələb edir ki, humanitar sahəyə daha da böyük diqqət göstərilsin. Əminəm ki, Forum çərçivəsində aparılacaq diskussiyalar, fikir mübadiləsi humanitar əməkdaşlığın dərinləşməsinə xidmət edəcəkdir. Biz Azərbaycanda bu sahəyə çox böyük diqqət göstəririk. Təsadüfi deyil ki, bu Forum da məhz Azərbaycanda keçirilir. Deyə bilərəm ki, hazırda dünyada humanitar məsələlərin müzakirəsi, təhlilin aparılması üçün bu Forumun müstəsna rolu vardır. Əlbəttə, buna görədir ki, Foruma maraq durmadan artır. Bu, artıq beynəlxalq aləmdə önəmli bir formata çevrilibdir.

Biz Azərbaycan olaraq ölkələr arasındakı əlaqələrin inkişafı üçün humanitar aspektlərə daim böyük diqqət göstərmişik. Çünki bizim tarixi keçmişimiz, mədəniyyətimiz bunu diktə edir. Əsrlər boyu Azərbaycanda çoxkonfessiyalı, çoxmillətli cəmiyyət formalaşıb, mövcuddur və müstəqillik dövründə bu müsbət meyillər daha da gücləndi. Azərbaycanda bütün xalqlar dostluq, mehribanlıq şəraitində, bir ailə kimi yaşayır. Heç vaxt Azərbaycanda dini, milli zəmində qarşıdurma, anlaşılmazlıq olmayıb və bu, bizim böyük sərvətimizdir. Çünki hər bir ölkənin gücünü əlbəttə ki, bir neçə amil müəyyən edir – siyasi imkanlar, iqtisadi güc və eyni zamanda, cəmiyyətdə mövcud olan ab-hava, sağlam mühit və həmrəylik duyğuları. Hesab edirəm ki, bu baxımdan Azərbaycanın təcrübəsi çox müsbətdir və biz öz işimizlə dünyada gedən proseslərə müsbət töhfəmizi veririk.

Multikulturalizm Azərbaycanda həyat tərzidir. Düzdür, bu termin nisbətən yenidir. Ancaq əsrlər boyu Azərbaycanda multimədəniyyətli cəmiyyətlər mövcud olub. Xalqlar arasındakı dostluq və həmrəylik bunun bariz nümunəsidir. Biz bu gün də çalışırıq ki, öz təşəbbüsümüzlə regionda və dünyada gedən proseslərə müsbət təsirimizi göstərək. Təsadüfi deyil ki, Azərbaycan tərəfindən irəli sürülmüş bir neçə təşəbbüs artıq həyatda öz yerini tapıbdır və bu təşəbbüslər ətrafında yeni imkanlar yaranır. Misal üçün qeyd etməliyəm ki, 2008-ci ildə Avropa Şurasına üzv ölkələrin mədəniyyət nazirlərinin Bakıda keçirilən toplantısına biz İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin mədəniyyət nazirlərini dəvət etdik və birgə toplantı keçirdik. Bu, tarixdə ilk dəfə baş vermişdir və Azərbaycan həm Avropa Şurasına, həm İslam Əməkdaşlıq Təşkilatına üzv olduğu üçün bu təşəbbüsü öz üzərinə götürmüşdür. 2009-cu ildə artıq Bakıda İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin mədəniyyət nazirlərinin toplantısına biz Avropa Şurasından mədəniyyət nazirlərini dəvət etmişdik. Yəni, bu təşəbbüsə "Bakı prosesi" adı verilmişdir. Bu gün "Bakı prosesi" yaşayır və inkişaf edir. Bakıda sivilizasiyalararası dialoq forumları keçirilmişdir. Bizim təşəbbüsümüzlə bir neçə il bundan əvvəl dünya dini liderlərinin Zirvə görüşü keçirilmişdir və Bakı Beynəlxalq Humanitar Forumunun mahiyyəti də məhz bundadır.

Əminəm ki, Forumda iştirak edən görkəmli dövlət xadimləri, ictimai xadimlər, alimlər, mütəxəssislər, ekspertlər bu günlər ərzində öz maraqlı fikirlərini bizimlə bölüşəcəklər və beləliklə, biz birgə səylərlə humanitar sahəyə öz töhfəmizi vermiş olacağıq. Biz gələcəkdə də humanitar əməkdaşlığın dərinləşməsi üçün öz səylərimizi göstərəcəyik. Əlbəttə, hesab edirəm, sirr deyil ki, bu Forum artıq hər il keçiriləcək və beləliklə, bu format yaşayacaqdır.

Onu da qeyd etməliyəm ki, humanitar əməkdaşlığa, humanitar məsələlərin həllinə həmişə böyük diqqət göstərməyimizə baxmayaraq, xalqımız və dövlətimiz humanitar fəlakətlə üzləşmişdir. Azərbaycanın ərazi bütövlüyü pozulmuşdur. Bizə qarşı işğalçı siyasət aparılır. Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazisi Ermənistanın işğalı altındadır. Bu işğal nəticəsində torpaqlarımızın 20 faizi ermənilər tərəfindən zəbt edilibdir. Bir milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür və bizə qarşı etnik təmizləmə siyasəti aparılmışdır. Xocalı soyqırımı törədilmişdir ki, yüzlərlə günahsız insan bu soyqırımının qurbanı olmuşdur. Xocalı soyqırımını 10-dan çox ölkə rəsmi şəkildə soyqırımı kimi tanıyıbdır. Bu münaqişə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bütün mötəbər beynəlxalq təşkilatlar qərar və qətnamələr qəbul etmişlər. BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul etmişdir ki, orada erməni silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılması tələb olunur. Əfsuslar olsun ki, bu qətnamələr icra edilmir və biz burada böyük ədalətsizliklə, ikili standartlarla üzləşirik. Çünki biz yaxşı bilirik ki, bəzi hallarda BMT Təhlükəsizlik Şurasının qətnamələri bir gün ərzində icra edilir. Ancaq bizim üçün ən vacib məsələdə 20 ildən artıqdır ki, bu qətnamələr kağız üzərində qalıbdır. ATƏT, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası Parlament Assambleyası və digər beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən qərar və qətnamələr qəbul etmişlər və bu format, bu hüquqi baza münaqişənin həlli üçün yeganə yoldur.

Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınır və qeyd-şərtsiz bərpa edilməlidir. İşğaldan əziyyət çəkən, öz yerindən didərgin düşən soydaşlarımız doğma torpaqlarına qayıtmalıdırlar. Baxmayaraq ki, o torpaqlarda artıq həyat yoxdur, hər şey dağıdılıb. ATƏT-in faktaraşdırıcı və qiymətləndirmə missiyaları işğal edilmiş torpaqlara iki dəfə ezam olunmuşdur və onların məruzələrində açıq-aydın göstərilir ki, hər şey dağıdılıb. Bizim məscidlərimiz, əcdadlarımızın qəbirləri, tarixi abidələrimiz dağıdılıb, muzeylərimiz talan edilib. Yəni, bu, böyük humanitar fəlakətdir və Azərbaycan təkbaşına, öz gücü hesabına bu humanitar məsələnin həlli, köçkünlərin yerləşdirilməsi, onları işlə təmin etmək üçün böyük işlər görüb və hələ bu işlər davam edir. Çünki köçkünlərin bir hissəsi hələ ki, ağır vəziyyətdə yaşayır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi bölgə üçün ən böyük təhlükədir. Bu münaqişənin tezliklə beynəlxalq hüququn norma və prinsipləri əsasında həll olunması bölgəyə sülh, daha da böyük inkişaf gətirəcək, regional əməkdaşlıq üçün də yeni imkanlar yaradacaqdır. Bu ağır vəziyyətə baxmayaraq, Azərbaycanın inkişafı dayanıqlı olmuşdur, o cümlədən biz humanitar sahədə son illərdə böyük uğurlara imza atmışıq. Humanitar sahə bizim hökumətimiz üçün prioritet sahələrdən biridir və bu sahəyə investisiyalar qoyulur. Eyni zamanda, hesab edirəm ki, Azərbaycanda humanitar məsələlər uğurla öz həllini tapır.

Təhsilə böyük diqqət göstərilir. Son 10 il ərzində 3 minə yaxın yeni məktəb tikilibdir. Təhsilin keyfiyyətinin artırılması üçün islahatlar aparılır. Hesab edirəm ki, biz yaxın gələcəkdə bu islahatların gözəl nəticələrini görəcəyik. Eyni zamanda, Azərbaycan gəncləri dövlət vəsaiti hesabına dünyanın aparıcı ali məktəblərinə oxumağa göndərilirlər və onlar gələcəkdə ölkəmizin inkişafında öz sözlərini deyəcəklər.

Səhiyyə sisteminin təkmilləşdirilməsi məsələsi çox aktualdır. Nəzərə alsaq ki, müstəqilliyimizin ilk illərində səhiyyə sisteminin maddi-texniki bazası tamamilə yararsız vəziyyətə düşmüşdü və biz böyük investisiyalar qoymaqla müasir səhiyyə infrastrukturunu yaratmışıq. Son 10 ildə 500-dən çox səhiyyə ocağı tikilib, təmir edilib və bu gün onların bir çoxu ən yüksək standartlara cavab verir.

Bizim mədəniyyətlə bağlı təşəbbüslərimiz öz nəticəsini verir. Azərbaycanda mütəmadi qaydada beynəlxalq tədbirlər, festivallar, konkurslar keçirilir. Bizim tarixi abidələrimiz bərpa edilir, xüsusi proqram icra olunubdur. Azərbaycanda çoxlu qədim tarixi abidələr var. Onlar bizim milli sərvətimizdir, o cümlədən dini abidələrimiz dövlət tərəfindən bərpa edilir və yeniləri tikilir. Qeyd etməliyəm ki, dünyanın ən qədim məscidlərindən biri olan Şamaxı Cümə məscidi əsaslı şəkildə bərpa edilibdir. Bu məscid 743–cü ildə Şamaxı şəhərində tikilmişdir və müsəlman aləmində ən qədim məscidlərdən biridir. Şəki rayonunun Kiş kəndində Qafqazın ən qədim kilsəsi yerləşir. O kilsə də bərpa edilib və bu, bizim milli sərvətimizdir. Azərbaycanda pravoslav kilsələr, katolik kilsə, sinaqoqlar dövlətin dəstəyi ilə əsaslı şəkildə təmir edilib. Yəni, bu, bizim böyük sərvətimizdir və bir daha demək istəyirəm ki, multimədəniyyətli cəmiyyət, dinlərarası dialoq, xalqlar arasındakı dostluq, qardaşlıq bizim dövlətimizi gücləndirir. Çünki bu, cəmiyyətdə çox gözəl abhava yaradır. Bir daha demək istəyirəm ki, bu, həm dövlət siyasətidir, eyni zamanda, cəmiyyətin sifarişidir. Yəni, hesab edirəm ki, biz bu istiqamətdə uğurla inkişaf edəcəyik. Onu da qeyd etməliyəm ki, bu sahədə əldə edilmiş təcrübə başqa ölkələr üçün də maraqlı ola bilər.

Biz, eyni zamanda, iqtisadi sahəyə böyük diqqət göstəririk. Çünki güclü iqtisadiyyat olmasa, humanitar təşəbbüsləri irəli sürmək də o qədər asan olmayacaq. Ona görə çalışırdıq ki, iqtisadi təhlükəsizliyimizi təmin edək, dövlətimizi gücləndirək və eyni zamanda, ağır vəziyyətdə yaşayan soydaşlarımız üçün yeni imkanlar yaradaq. Bizim sosial siyasətimiz məqsədyönlü şəkildə aparılır. Son 10 il ərzində pensiyalar, maaşlar dəfələrlə artmışdır, yoxsulluğun səviyyəsi kəskin şəkildə aşağı düşmüşdür. Yoxsulluq cəmi 10 il ərzində 49 faizdən 5,3 faizə düşmüşdür. Demək olar ki, yoxsulluqla mübarizə artıq başa çatmaq üzrədir. Hesab edirəm ki, yaxın bir neçə il ərzində yoxsulluq Azərbaycanda bir amil kimi tamamilə aradan götürüləcəkdir.

İşsizliklə bağlı mübarizə də, ilk növbədə, humanitar xarakter daşıyır. Çünki son illər ərzində 1 milyon 200 mindən çox iş yeri yaradılmışdır və işsizlik də kəskin şəkildə aşağı düşmüşdür. İndi 5 faizdən azdır. Artıq Azərbaycana başqa ölkələrdən iş tapmaq üçün miqrantlar gəlir. Yəni, bütün bunların təməlində düşünülmüş siyasət dayanır. Çünki iqtisadi inkişaf çox sürətlidir. Son 10 il ərzində Azərbaycan iqtisadi inkişaf baxımından dünyada ən sürətlə inkişaf edən ölkə olmuşdur. Bizim bütün iqtisadi göstəricilərimiz müsbətdir. İqtisadiyyat son 10 ildə 3 dəfədən çox artmışdır. Xarici dövlət borcu çox aşağı, 8 faiz səviyyəsindədir. Büdcə gəlirləri son 10 il ərzində 20 dəfədən çox artmışdır. Büdcə gəlirlərinin düzgün bölüşdürülməsi, sosial proqramların icrası, infrastruktur layihələrinin həyata keçirilməsi ölkəmizin inkişafını təmin etmişdir.

Əlbəttə, Azərbaycan dünyada neft-qaz ölkəsi kimi tanınır. Bu, bizim böyük sərvətimizdir. Ancaq biz bilirik ki, bəzi ölkələrdə bu böyük sərvət heç də uğur gətirmir, əksinə, problemlər yaradır, müharibələrə, cəmiyyətdə təbəqələşməyə yol açır. Azərbaycanda isə biz bunun tam əksini görürük. Bizim təbii sərvətlərimiz hər bir insanın həyatında öz müsbət təsirini

(davamı səh. 3-də)



# Dördüncü Bakı Beynəlxalq Humanitar Forumu çərçivəsində plenar iclas keçirilib




- **Oktyabrın 2-də rəsmi açılış mərasimindən sonra IV Bakı Beynəlxalq Humanitar Forumu plenar iclasla işini davam etdirib.**
- **AzərTAc xəbər verir ki, sabiq dövlət başçılarının iştirak etdikləri iclasın birinci hissəsinə sədrlik edən Azərbaycanın gənclər və idman naziri Azad RƏHİMOV müstəqillik illərində ölkəmizdə humanitar sahənin inkişafı ilə bağlı həyata keçirilən tədbirlərdən danışdı. Nazir bildirdi ki, artıq Azərbaycanda çoxmədəniyyətli dialoq platforması qurulub.**

Estoniyanın sabiq Prezidenti Arnold RÜÜTEL çıxışında dünyada mövcud olan ekoloji problemlərə nəzər saldı, flora və fauna növlərinin azalmasının narahatlıq doğurduğunu diqqətə çatdırdı. Son illərdə yoxsul ölkələrin sayının çoxaldığını deyən Estoniyanın sabiq Prezidenti sosial bərabərsizliyin artmasının da ciddi problemə çevrildiyini qeyd etdi. Arnold Rüütel ölkəsində ekoloji tarazlığa nail olmaqla bağlı görülən işlərdən, qlobal mədəni müxtəlifliyə verilən töhfələrdən də danışdı.

***

Xorvatiyanın keçmiş Prezidenti Stepan MESİÇ xalqlar arasında etimadın bərpası məsələsindən bəhs etdi. Bildirdi ki, beynəlxalq aləmdə baş verən terror aktları yolverilməzdir və bu səbəbdən etimada əsaslanan münasibətlərin bərpası zərurətə çevrilib. Stepan Mesiç zorakılıq hallarını qətiyyətlə pislədi, mübahisəli məsələlərin danışıqlar yolu ilə həllinə tərəfdar olduğunu bildirdi.

***

Latviyanın sabiq Prezidenti Valdis ZATLERS diqqəti ötən Forumda müəyyən edilən məqsədlərə nə dərəcədə nail olunması məsələsinə cəlb etdi. O, dünyadakı gərginliyin təməlində din amilinin yox, digər səbəblərin dayandığını söylədi, müharibələrin sülhə hədə olduğunu dedi. Bu baxımdan qonaq Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin tapılmasının vacibliyini vurğuladı.

***

Litvanın keçmiş Prezidenti Vitautas LANDSBERGİS Bakı Humanitar Forumunun əsasında dayanan ideyanın sülhə əsaslandığını diqqətə çatdıraraq bildirdi ki, Azərbaycan işğal faktı ilə üzləşsə də, sabit dövlət qurmaq ideyalarını uğurla nümayiş etdirir.

***

İtaliya Nazirlər Şurasının sabiq sədri Enriko LETTA ölkələrimiz arasında münasibətlərin inkişaf etdiyini dedi, Forumun əhəmiyyətindən danışdı. Enriko Letta Avropa İttifaqının Cənubi Qafqaz regionu ilə əlaqələrinə toxunaraq bildirdi ki, Azərbaycan ilə iqtisadi və sosial əməkdaşlıq genişləndirilməlidir. "Biz çox şadıq ki, Azərbaycan Avropa tərəfdaşlığında iştirak edir", - deyən qonaq gələn il ölkəmizdə ilk Avropa Oyunlarının yüksək səviyyədə keçiriləcəyinə əminliyini ifadə etdi.

***

Küveytin İdeal Ailə Cəmiyyətinin prezidenti ülyahəzrət Şeyxa Fariha əl-Əhməd əl-Cabir əl-SABAH böhranın yaşandığı bugünkü dünyada diqqətin ölkəmizə yönəldiyini dedi, belə bir dövrdə nailiyyətləri necə əldə etməyin formulunun Azərbaycanda müşahidə edildiyini bildirdi.

***

Braziliya xarici işlər nazirinin əməkdaşlıq, mədəniyyət və ticarətin təşviqi məsələləri üzrə müavini Hadil Fontes da Roşa VIANNA belə nüfuzlu Foruma dəvətə görə minnətdarlığını bildirdi. Nazir müavini Braziliyada mədəni müxtəliflik sahəsində görülən işlərdən danışdı, mədəni plüralizmin hər bir ölkə üçün əhəmiyyətini vurğuladı.

***

Meksika Birləşmiş Ştatları Senatının xarici əlaqələr komitəsinin sədri Qabriela KUEVASForumda müzakirəyə çıxarılan məsələlərin vacibliyinə toxunaraq vurğuladı ki, dünya birliyi mövcud münaqişələrin danışıqlar yolu ilə həllinə çalışmalı, beynəlxalq hüququn norma və prinsipləri təmin edilməlidir. O, xüsusilə terrorçuluqla mübarizədə səylərin birləşdirilməsinin zəruriliyini qeyd etdi.

***

(davamı səh. 4-də)

(əvvəli səh. 2-də)

# Bakıda IV Beynəlxalq Humanitar Forum keçirilib

göstərib. Çəkilən yollar, açılan xəstəxanalar, artan maaşlar, abadlaşan şəhərlər bunun bariz nümunəsidir. Azərbaycanda neft gəlirlərindən düzgün istifadə etmək, "qara qızıl"ı insan kapitalına necə çevirmək, - artıq biz buna nail olmuşuq, - sahəsində nadir təcrübə toplanmışdır. Gələcəkdə bizim iqtisadiyyatımız çoxşaxəli formatda inkişaf edəcək. Bu gün biz yeni texnologiyalara investisiyalar qoyuruq.

Bu gün Azərbaycan artıq kosmik sənayeyə malik olan ölkədir, kosmik ölkələrin klubuna daxil edilibdir. Biz innovasiyalara, yeni texnologiyalara, elmin inkişafına çox böyük önəm veririk. Elmin İnkişafı Fondu yaradılmışdır. İqtisadi inkişaf, sosial məsələlərin həlli, humanitar sahəyə diqqət, deyə bilərəm ki, son illərdə Azərbaycanın uğurlu inkişafını şərtləndirən əsas amillər olmuşdur. Hesab edirəm ki, biz iqtisadi sahədə öz işimizlə bölgədə gedən regional əməkdaşlığa da müsbət təsir göstəririk. Bir çox hallarda nəhəng regional layihələrin, enerji, nəqliyyat layihələrinin təşəbbüskarı Azərbaycan olmuşdur və əsas iqtisadi riskləri də öz üzərinə götürmüşdür. Deyə bilərəm ki, bizim bütün təşəbbüslərimiz, iqtisadiyyatla, enerji ilə, nəqliyyatla bağlı layihələrimiz uğurla nəticələnir. Bir dəfə də olsun uğursuzluq olmamışdır və əminəm ki, olmayacaqdır.

Azərbaycan hazırda iqtisadi, siyasi cəhətdən müstəqil bir ölkədir, müstəqil xarici siyasəti var. Bu siyasət dünyanın əksər ölkələri tərəfindən dəstəklənir. Bu sözləri əyani şəkildə təsdiqləmək üçün sadəcə olaraq demək istəyirəm ki, Azərbaycan bir neçə il bundan əvvəl BMT Təhlükəsizlik Şurasına üzv seçilmişdir. BMT Təhlükəsizlik Şurası dünyanın ən mötəbər qurumudur və gənc müstəqil dövlət Azərbaycan 155 ölkənin dəstəyi ilə o mötəbər təşkilata üzv olmuşdur. Yəni, bu da bizim dünyadakı rolumuzu, müstəqil xarici siyasətimizi əks etdirir. Çünki dünya birliyinin böyük əksəriyyəti bizə inanır və öz səsini verməklə bizə dəstəyini göstərmişdir.

Hesab edirəm ki, əgər hər bir ölkə müstəqil xarici siyasət aparsa, onda dünyada müharibələr də az olar, anlaşılmazlıq da azalar. Hər bir ölkə digər ölkəyə hörmətlə yanaşmalıdır. Hər bir ölkə digər ölkənin seçiminə də hörmətlə yanaşmalıdır - həm beynəlxalq müstəvidə, həm dinlərarası dialoq, humanitar sahədə. Bütün bunlar bir-biri ilə bağlıdır. Burada əyləşən nümayəndələr, 60-dan çox ölkədən gələn qonaqlar müxtəlif ölkələri təmsil edirlər, amma biz bir yerdə yığışırıq, müzakirə aparırıq. Çalışırıq necə yol tapaq ki, dünyada gedən prosesləri daha çox müsbət tərəfə istiqamətləndirək. Çünki bu gün gedən proseslər çox narahatedici proseslərdir. Həm müsəlman aləmində, həm Avropada radikalizm, ayrı-seçkilik, irqçilik artır. Bu meyilləri biz görürük və bunu narahatlıqla izləyirik.

Biz burada - Bakıda bu günlər ərzində çalışacağıq ki, bu meyillərin qarşısını almaq üçün hansı işlər görülməlidir. Əsas məsələ bundan ibarətdir. Çünki biz sivilizasiyalararası dialoqdan söhbət açırıq. Amma, eyni zamanda, bəzi bəyanatlar bizi məyus edir ki, multikulturalizm iflasa uğradı, multikulturalizmin gələcəyi yoxdur. Bu, çox təhlükəli bəyanatlardır. Qeyd etməliyəm ki, multikulturalizmin müasir dünyada alternativi yoxdur. Çünki dünya ölkələrinin mütləq əksəriyyəti çoxmillətli ölkələrdir. Əgər multikulturalizm iflasa uğrayıbsa, onda bunun alternativi nə ola bilər? Bu da çox aydındır. Bu, ayrı-seçkilikdir, irqçilikdir, ksenofobiyadır, islamofobiyadır, antisemitizmdir. Biz bu təhlükəli meyillərə qarşı öz səsimizi ucaltmalıyıq. Əlbəttə ki, bunu, ilk növbədə, dövlətlər etməlidirlər. Amma, eyni zamanda, dövlətlərin bu siyasətini böyük dərəcədə hər bir cəmiyyətin siyasi və ictimai-elmi elitası, ictimai rəy müəyyən edir. Heç bir dövlət və hökumət başçısı ictimai rəyi nəzərə almaya, ona məhəl qoymaya bilməz. Ona görə hesab edirəm ki, biz birgə səylərimizlə bu məsələləri açmalıyıq, danışmalıyıq. Narahatedici məsələlər ətrafında fikirlərimizi bildirməliyik, lazım gəldikdə irad tutmalıyıq. Biz tərəfdaş kimi, dost kimi bu məsələlərə öz fikrimizi bildirməliyik. Biz Azərbaycanda çalışırıq ki, yaşadığımız bölgədə regional əməkdaşlıq inkişaf etsin, millətlərarası münasibətlər daha da yaxşılaşsın, dinlərarası dialoq güclənsin. Bizim imkanımız var. Çünki bizim keçmişimiz, dediyim kimi imkan verir ki, bu məsələlərə böyük diqqətlə yanaşaq. Biz bu məsələləri bilirik. Çünki həm Azərbaycan özü çoxmillətli, çoxkonfessiyalı ölkədir, həm də keçmişdə müxtəlif dinlərin nümayəndələri Azərbaycanda birgə yaşamışdır. Qeyd etdiyim kimi, biz bu gün həm Avropa Şurasının, eyni zamanda, İslam Əməkdaşlıq Təşkilatının üzvü kimi bu missiyanı öz üzərimizə götürmüşük. Biz istəyirik ki, daha da çox əməkdaşlıq, qarşılıqlı anlaşma olsun. Biz bundan sonra da öz rolumuzu bunda görürük.

Müsəlman aləmində gedən xoşagəlməz proseslər də bizi çox narahat edir. Çünki biz müsəlman aləminin bir parçasıyıq. Bu gün müharibələr, toqquşmalar, qanlı toqquşmalar demək olar ki, ölkələri məhv edir. Bu, çox ciddi prosesdir. Biz bu prosesə təcrid edilmiş proses kimi baxa bilmərik. Müasir dünyada biz hamımız bir-birimizlə bağlıyıq. Eyni zamanda, Avropa qitəsində miqrantlara qarşı münasibətin pisləşməsi, "multikulturalizm iflasa uğrayıb" kimi bəyanatların verilməsi və ayrı-seçkiliyə meyilli olan siyasi qüvvələrin daha da böyük səs toplaması, əlbəttə ki, hamımızı narahat etməlidir.

Yenə də deyirəm, bu Forumun keçirilməsi də bu məqsədi güdür. Çünki hesab edirəm ki, müasir dünyada həm coğrafi, eyni zamanda, humanitar baxımdan Azərbaycanın nadir rolu var. Biz Avropa ilə Asiya arasında, qədim "İpək yolu" üzərində yerləşən bir ölkəyik və biz Avropanı da yaxşı anlayırıq, müsəlman ailəsinin də bir parçasıyıq. Biz çalışırıq ki, bu sivilizasiyalararası dialoq, humanitar dialoq daha da güclü olsun, daha da güclənsin.

Əlbəttə ki, müzakirələrdə bu məsələlərə diqqət göstəriləcəkdir. Əmənəm ki, müzakirələr çox uğurlu keçəcək. Dediyim sözləri təsdiq etmək üçün qeyd etməliyəm ki, nəinki humanitar sahədə, digər sahələrdə də bir çox təşəbbüslər hesab edirəm uğurlu olmuşdur.

İki il bundan əvvəl Azərbaycanda Avropanın və bəlkə də dünyanın ən mötəbər mahnı yarışı – "Eurovision" müsabiqəsi böyük uğurla keçirilmişdir. Bütün qonaqlar çox razı qalmışdılar.

Gələn il birinci Avropa Oyunları, - buna qeyri-rəsmi Avropanın Olimpiya Oyunları deyirlər, -Bakıda keçiriləcək. Bu da çox əlamətdar hadisədir. Çünki Avropada bu günə qədər Olimpiada səviyyəsində yarışlar keçirilməmişdir. Bakıda da Azərbaycan öz namizədliyini irəli sürmüşdür və Avropanın olimpiya ailəsi bizə böyük etimad göstərmişdir.

2017-ci ildə isə İslam Həmrəylik Oyunları Bakıda keçiriləcəkdir. Cəmi iki il ərzində həm Avropa, həm İslam Oyunları Azərbaycanda keçiriləcək. Bu da dediyim sözlərin təsdiqidir. Bu, bizim rolumuzdur və biz çalışırıq ki, xalqları birləşdirək. Onu da qeyd etmək istəyirəm ki, keçən ay bizim üçün çox önəmli və tarixi qərar qəbul edilmişdir - futbol üzrə Avropa çempionatı 2020-ci ildə, o cümlədən Bakıda keçiriləcək. Cəmi 13 şəhər - Avropanın 13 şəhəri seçilmişdir. Onlardan biri də Bakıdır. Yəni, budur bugünkü Azərbaycan. Biz Avropa ailəsinin üzvüyük, müsəlman ailəsinin üzvüyük və sübut edirik ki, bu, mümkündür. Biri o birisini inkar etmir və etməməlidir. Bu gün inkişafda olan ölkəmiz göstərir ki, düşünülmüş siyasət, cəmiyyətdə müsbət meyillər güclü olanda böyük uğurlara imza atmaq mümkündür.

Əziz qonaqlar, mən sizi bir daha səmimiyyətlə salamlayıram. Bilirəm ki, qonaqlar arasında ölkəmizlə tanış olan nümayəndələr vardır. İlk dəfə gələnlər də var. Əminəm ki, bu Forumun keçirilməsi sizin üçün çox maraqlı olacaq. Siz öz dəyərli fikirlərinizi bölüşəcək, eyni zamanda, ölkəmizlə yaxından tanış olacaqsınız.

Forumun iştirakçılarına uğurlar arzulayıram. Sağ olun!

***

Rəsmi açılış mərasimi başa çatdıqdan sonra Forum öz işini plenar iclasla davam etdirib.

# Nobel mükafatçıları Azərbaycan Tibb Universitetində

**◆Oktyabrın 4-də Azərbaycan Tibb Universitetinin Tədris-Cərrahiyyə Klinikasında IV Bakı Beynəlxalq Humanitar Forumunun iştirakçıları, Nobel mükafatı laureatları–Ervin Neher və Kurt Vütrix ilə görüş keçirilib.**





Görüşdə çıxış edən ATU-nun rektoru, millət vəkili, akademik Əhliman Əmiraslanov Forumda müzakirə edilən mövzuların aktuallığından danışıb. Bildirib ki, Forum çərçivəsində ATU-nun təşkilatçılığı ilə oktyabrın 3-də keçirilən "dəyirmi masa"da tibb sahəsi üzrə son dərəcə aktual məsələlərlə bağlı fikir mübadiləsi aparılıb, bu sahədə dünyada əldə olunmuş nailiyyətlər barədə məlumat verilib. Hörmətli qonaqlar haqqında görüş iştirakçılarına məlumat verən rektor bildirib ki, hər iki alim çalışdıqları sahə üzrə dünyada böyük nailiyyətlər qazanıblar. Rektor diqqətə çatdırıb ki, Nobel mükafatı laureatları – Ervin Neherin və Kurt Vütrixin "dəyirmi masa"da məruzələri maraqla qarşılanıb.

Sonra Nobel mükafatçılarının elmdə əldə etdiyi uğurlar barədə toplantı iştirakçılarına ətraflı məlumat verilib.

İon kanalları ilə bağlı apardığı tədqiqatlardan danışan almaniyalı Nobel mükafatçısı, professor Ervin Neyer bildirib ki, bu tədqiqatlar "insan biologiyası"nın öyrənilməsində, habelə bir sıra xəstəliklərlə mübarizədə böyük imkanlar açır. Son onillikdə belə xəstəliklərlə bağlı ciddi araşdırmalar aparıldığını vurğulayan alim Çin, ABŞ və Yaponiyada insan beyninin araşdırılması ilə bağlı iri layihələr həyata keçirildiyini vurğuladı.

Amerikalı Nobel mükafatçısı, professor Kurt Vütrix isə ötən əsrdəki fundamental tədqiqatların XXI əsrdə biologiya və tibbi diaqnostikada əhəmiyyətindən söz açıb. O, elmin qloballaşdığı bir dövrdə dünya alimləri arasında əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsinin vacibliyini diqqətə çatdırıb.

Diskussiya şəraitində keçən görüşdə qonaqlar universitet müəllimlərinin suallarını cavablandırıblar.

Görüşün sonunda akademik Ə.Əmiraslanov Nobel mükafatı laureatlarına universitet adından milli sənətəmizi özündə əks etdirən xüsusi hədiyyələr təqdim edib.

**MƏNSUR**

# Dördüncü Bakı Beynəlxalq Humanitar Forumu çərçivəsində plenar iclas keçirilib

(əvvəli səh. 3-də)

UNESCO-nun İcra Şurasının sədri Məhəmməd Sami ƏMİRİ Forumun yüksək səviyyədə təşkilinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. UNESCO-nun yarandığı vaxtdan humanizm ideyalarını təşviq etdiyini deyən qonaq dünyada mədəni müxtəlifliyin təmin olunmasını vacib meyar kimi dəyərləndirdi. O, Bakı Forumunun məqsədlərinin UNESCO idealları ilə üst-üstə düşdüyünü vurğuladı.

***

Plenar iclasın Azərbaycan Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin iştirak etdiyi ikinci hissəsində Nobel mükafatı laureatları çıxış etdilər.

İclasın ikinci hissəsinə sədrlik edən Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Akif ƏLİZADƏ Forumun dünyanın bütün bölgələrindən məşhur alimləri, siyasətçiləri bir araya gətirmək baxımından böyük platforma olduğunu bildirdi.

***

Fiziologiya və tibb üzrə Nobel mükafatı laureatı Ervin NEHER son illərdə kimya, biotexnologiya, fiziologiya sahələrində mühüm nailiyyətlər əldə edilməsi ilə regenerativ xəstəliklərin aradan qaldırılması istiqamətində ciddi nəticələrə nail olunduğunu bildirdi. Son onillikdə belə xəstəliklərlə bağlı ciddi araşdırmalar aparıldığını vurğulayan alim Çin, ABŞ və Yaponiyada insan beyninin araşdırılması ilə bağlı iri layihələr həyata keçirildiyini vurğuladı.

***

Kimya üzrə Nobel mükafatı laureatı Rudolf Artur MARKUS dünyada sosial rifahın bərabər olmaması nəticəsində müasir dövrdə cəmiyyətlərin bir sıra çətinliklərlə qarşılaşdığını diqqətə çatdırdı. O, qeyd etdi ki, bu problemlərin qarşısının alınması üçün nisbətən zəif inkişaf etmiş ölkələrdə elm, təhsil, səhiyyə sahələrində iri layihələr davamlı şəkildə həyata keçirilməlidir.

***

Kimya üzrə Nobel mükafatı laureatı Keri Benks MULLİS



müasir dünyada xəstəliklərin, problemlərin qarşısının alınmasının alimlər üçün ciddi məsələ olduğunu söylədi. Diqqətə çatdırıldı ki, çağdaş dünyada mövcud olan ətraf mühit problemləri, müharibələr, insanlar arasında nifrət, ədavət, zorakılıq halları və digər cinayətlərin qarşısının alınmaması bəşəriyyəti addım-addım fəlakətə doğru sürükləyir.

***

Fiziologiya və tibb üzrə Nobel mükafatı laureatı Rudolf Martin TSİNKERNAGEL bildirdi ki, cəmiyyətdə baş verən problemləri anlamaq üçün insan fiziologiyası dərindən öyrənilməlidir. Bu baxımdan yüksək keyfiyyətli ibtidai təhsil, savadlı gənc müəllimlərin yetişdirilməsi çox mühüm əhəmiyyət kəsb edir. Bu, bütövlükdə insan həyatının qorunması üçün olduqca vacibdir.

***

Fizika üzrə Nobel mükafatı laureatı Robert Betts LAFLİN müasir dövrdə daha da inkişaf etdirilən kompyuterlərin insanın fiziki keyfiyyətlərini üstələdiyini dedi. Texnoloji inkişafın sonsuz proses olduğunu bildirən alim artıq elektron inqilabın fəsadları haqqında da düşünməyin zamanının çatdığını vurğuladı.

***

Kimya üzrə Nobel mükafatı laureatı nümunəsi olan Heydər Əliyev Mərkəzində çıxış etməkdən fərəh duyduğunu bildirdi. O, müxtəlif dövrlərdə əldə edilmiş elmi kəşflərin tətbiqi nəticəsində bu gün iqtisadiyyat, tibb, texnologiya və digər sahələrdə mühüm nailiyyətlərin qazanıldığını diqqətə çatdırdı.

***

Artıq dördüncü dəfədir Bakıda olmaqdan məmnunluğunu bildirən iqtisadiyyat üzrə Nobel mükafatı laureatı Fin KİDLAND dünya iqtisadi böhranının təsirindən və bu böhrandan çıxmaq istiqamətində dövlətlərin gördüyü işlərdən bəhs etdi. O, dünya iqtisadi böhranının hökumətləri iqtisadi inkişafla bağlı proqnozlarını konkret tərtib etmək məcburiyyəti ilə üz-üzə qoyduğunu söylədi.

***

Fizika üzrə Nobel mükafatı laureatı Deyvid Conatan QROSS bildirdi ki, bəşəriyyəti təhdid edən problemlər yalnız dünya ictimaiyyətinin birgə səyləri ilə həll edilə bilər. Mübahisələr güc yolu ilə həll edilməməlidir. Tarix bizə göstərir ki, bütün münaqişələr dəhşətli insan təlafatı ilə nəticələnir. Son illərdə millətçilik, zorakılıq hallarına tez-tez rast gəlindiyini, bunun çox böyük çətinliklər yaratdığını deyən alim bildirib ki, biz bu mənfi hallara qarşı mübarizə aparmaq üçün səylərimizi birləşdirməliyik.

***

Fizika üzrə Nobel mükafatı laureatı Teodor Volfqanq HENŞ Azərbaycanın humanitar dəyərlərə böyük önəm verdiyini vurğuladı. "Şadam ki, Azərbaycanda "qara qızıl"ın insan kapitalına çevrilməsinin şahidi oluruq", - deyən alim hazırda texnologiya sahəsində sürətli inkişafın müşahidə edildiyini bildirdi, elmi dairələrin öz resurslarını bu istiqamətə yönəltməsini yüksək qiymətləndirdi.

***

Fizika üzrə Nobel mükafatı laureatı Corc Ficerald SMUTT dedi ki, yaşadığımız Yer kürəsini həm özümüz, həm də gələcək nəsillər üçün qorumalı, ətraf mühitə hansı təsirləri göstərdiyimizi bilməliyik. Dövlətlərin iqtisadi baxımdan nail olmaq istədikləri davamlı inkişaf ətraf mühitin mühafizəsi sahəsində də təmin edilməlidir.

***

Kimya üzrə Nobel mükafatı laureatı xanım Ada YONAT Foruma dəvətə və ölkəmizdə gördüyü qonaqpərvərliyə görə təşəkkürünü bildirdi. Çıxışında insanın uzunömürlülüyü barədə danışan alim müasir tibb elminin inkişafı nəticəsində bir çox xəstəliklərlə mübarizədə uğurların qazanıldığını qeyd etdi. O, həmçinin genetik kodun müəyyən vaxt daxilində dəyişməsi istiqamətində ciddi araşdırmaların aparıldığını vurğuladı.

***

İqtisadiyyat üzrə Nobel mükafatı laureatı Piter Artur DAYMOND məşğulluq məsələsindən danışdı. Qeyd etdi ki, iş qazanc gətirməklə yanaşı, insanda daxili məmnuniyyət yaradır. İqtisadiyyatların böhranlardan qorunması üçün hökumətlərin məşğulluq siyasətini şaxələndirməsinin vacibliyini bildirən P.Daymond işçi qüvvəsinin bir sahədən digərinə keçməsini, hər bir sektorda idarəçilik qabiliyyətinə malik insanların sayının çox olmasını məşğulluq probleminin həllində mühüm amil kimi qiymətləndirdi.

***

Fiziologiya və tibb üzrə Nobel mükafatı laureatı Tomas Kristian ZÜDHOF multikulturalizmin elmin inkişafına töhfəsini yüksək qiymətləndirərək bildirdi ki, elmin rolu bəşəri dəyərləri yaymaq və təbliğ etməkdir. O, bu işdə siyasətçilərin elmi dairələrə inamı, eləcə də praqmatik qərarların qəbulunda, onların əsaslandırılmasında alimlərin roluna geniş yer verilməsinin əhəmiyyətini vurğuladı.

***

Kimya üzrə Nobel mükafatı laureatı Ariye VARŞEL isə elmi nailiyyətlərin cəmiyyətin həyatına müsbət təsirindən danışdı. Alim bəşəriyyətin həyatının ciddi elmi nailiyyətlər nəticəsində daha da yaxşılaşdığını diqqətə çatdırdı.

***

AMEA-nın nəzdində Biofizika İnstitutunun yaradıldığını deyən Akif Əlizadə bu sahədə ölkəmizlə fəal əməkdaşlıq edən fizika üzrə Nobel mükafatı laureatı Corc Ficerald Smutta minnətdarlığını bildirdi.

Plenar iclasa yekun vuran akademik Akif Əlizadə dünyanın məşhur alimlərinin, Nobel mükafatı laureatlarının Forumda iştirak etmələrinin və çıxışlarının Azərbaycan və dünya elminə mühüm töhfə vermək baxımından əhəmiyyətini yüksək qiymətləndirdi.

*Oktyabrın 3-də IV Bakı Beynəlxalq Humanitar Forumu çərçivəsində "Molekulyar biologiya və biotexnologiyanın nailiyyətləri: nəzəriyyədən təcrübəyə" mövzusunda "dəyirmi masa" keçirilib.*




# Molekulyar biologiya və biotexnologiyanın nailiyyətləri: nəzəriyyədən təcrübəyə

AzərTAc xəbər verir ki, "dəyirmi masa"nın moderatoru, Azərbaycan Tibb Universitetinin rektoru, Milli Məclisin deputatı, akademik Əhliman Əmiraslanov tədbirdə 6 Nobel mükafatı laureatının iştirak etməsini mühüm hadisə kimi dəyərləndirdi. Mövzunun aktuallığından bəhs edən Ə.Əmiraslanov məlumat verdi ki, "dəyirmi masa"da üç panel üzrə molekulyar biologiyanın nailiyyətləri və perspektivləri ilə bağlı məruzələr dinləniləcək və müzakirələr aparılacaq.

Akademik Ə.Əmiraslanov forumun əhəmiyyətini, müzakirə edilən mövzuların aktuallığını vurğulamış, bu mötəbər tədbirdən gözləntilərin böyük olduğunu diqqətə çatdırmışdır.

Tibb elminin uğurlu nailiyyətlərindən danışan alim bildirmişdir ki, müasir dövrdə tibbin yüksək inkişafı nəticəsində bəzi genetik xəstəliklərin qarşısının alınması mümkündür.

"Müasir mərhələdə molekulyar biologiyanın nəzəri və tətbiqi aspektləri" mövzusundakı paneldə professor Keri Benks Mullis biotexnologiyanın yaranma tarixindən, müxtəlif ölkələrdə bu sahədə aparılmış tədqiqatlardan, eləcə də öz təcrübələrindən danışdı. Molekulyar biologiyanın yüksək elm sahəsinə çevrildiyini diqqətə çatdıran alim vurğuladı ki, biotexnologiyalar artıq həyatımızın bütün sahələrinə nüfuz edib.

Azərbaycana səfərindən məmnunluğunu ifadə edən Nobel mükafatı laureatı, professor Ariye Varşel isə bioloji molekulların funksiyasının öyrənilməsi və xəstəliklərlə mübarizədə müasir texnologiyalardan istifadə sahəsində əldə olunmuş nailiyyətlərdən bəhs etdi. O, son 40-50 ildə dünyada bakterial dərman rezistentliyi ilə mübarizədə əldə olunmuş irəliləyişlərdən danışdı. Həmçinin, insanların ömrünün azalması səbəblərinin əsasən yoluxucu xəstəliklərlə bağlı olduğunu diqqətə çatdıraraq vurğulandı ki, müasir dövrdə tibb sahəsində antibiotiklərə qarşı müqavimətin artması ən kəskin problemlərdəndir. Bu problemin həllində əczaçılıq şirkətlərinin üzərinə böyük vəzifələr düşür.

Nobel mükafatı laureatı Kurt Vütrix ötən əsrdəki fundamental tədqiqatların XXI əsrdə biologiya və tibbi diaqnostikadakı əhəmiyyətindən bəhs edərək dedi ki, elmi tərəqqinin əsasında fundamental tədqiqatlar dayanır. Elmin qloballaşdığı müasir dövrdə dünya elm adamları arasında əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi xüsusilə vacibdir.




Professor Tomas Kristian Züdhof kök hüceyrələrinin yaradılmasındakı çətinliklərdən, eləcə də kök hüceyrələrinin neyronlara çevrilməsi texnologiyalarından söz açdı.

Sonra məruzələr ətrafında fikir mübadiləsi aparıldı.

"Biotexnologiyada innovasiyaların reallaşdırılmasının etik və metodoloji problemləri " mövzusunda ikinci panel də maraqlı müzakirələrlə yadda qaldı.

Nobel mükafatı laureatı, professor Ervin Neyer 1976-1981-ci illərdə ion kanalları ilə bağlı aparılmış tədqiqatlardan danışaraq bildirdi ki, bu tədqiqatlar "insan biologiyası"nın öyrənilməsində, habelə bir sıra xəstəliklərlə mübarizədə böyük imkanlar açır. Hazırkı dövrdə dünyada yüzlərlə laboratoriya bu tədqiqatlardan yararlanır.

Professor Rudolf Martin Tsinkernagel isə məruzəsində immunçatışmazlığı virusu və vərəmə qarşı peyvəndin olmaması səbəblərini izah edərək dedi ki, həmin xəstəliklərə qarşı peyvəndlərin yaradılması ehtimalı ya çox azdır, ya da bu, mümkün deyil. Peyvəndin əhəmiyyətindən danışan alim bu kampaniya ilə bağlı əhali, xüsusilə gənclər arasında maarifləndirmənin aparılmasının zəruriliyini vurğuladı.

Professor Karol Sikoranın "Xərçəng: biotexnologiya üçün müvəffəqiyyət tarixi", professorEnriko Proiettinin "Xərçəng əleyhinə peyvəndlər: xərçəngin müalicə və profilaktikası üçün yeni eradır", professor Nikolay Zefirovun "Dərman kimyası – biologiya və kimyanın qovuşmasında olan elmdir" mövzularında məruzələri dinlənildi, müzakirələr aparıldı. Məruzələrdə son illər xərçəng xəstəliyinin müalicəsi sahəsində aparılmış tədqiqatlardan, gen terapiyası və onun əhəmiyyətindən danışıldı, habelə əhalinin maarifləndirilməsinin vacibliyi vurğulandı. Bu sahədə dünyada, o cümlədən Azərbaycanda mühüm işlərin görüldüyü diqqətə çatdırıldı.

Professor Gümrah Əliyevin "Yatmış gen ürək-damar, sinir və onkoloji xəstəliklərin inkişafının müasir alternativ nəzəriyyəsi kimi" mövzusunda məruzəsi maraqla qarşılandı. Professor Afiq Bərdəli isə "İnflammasomaya bağlı irsi xəstəliklər və hədəf müalicəsi" mövzusunda məruzə etdi.

Üçüncü panel isə müasir təbabətdə kök hüceyrələrinin tətbiqi probleminin müxtəlif aspektlərinə həsr olundu. Bu bölmədə professor Riçard Bört "Kök hüceyrələr, "ölülər" "dirilərə" yardım edir", professor Nuru Bayramov "Transplantologiyada kök hüceyrələr" mövzularında məruzələrlə çıxış etdilər.

Alimlər müasir dövrdə tibbin yüksək inkişafı nəticəsində bəzi genetik xəstəliklərin qarşısının alınmasının mümkünlüyünə diqqət çəkərək qeyd etdilər ki, son illər bu istiqamətdə, habelə orqan transplantasiyası sahəsində böyük uğurlar əldə olunub.

Məruzələrdə hüceyrə müalicəsinin əhəmiyyətindən, bu sahədə qazanılmış uğurlardan, kök hüceyrəsindən tibb sahəsində geniş istifadə edilməsindən də bəhs olundu.

"Dəyirma masa"ya yekun vuran akademik Əhliman Əmiraslanov tədbirdə tibb sahəsi üçün son dərəcə dəyərli və aktual məsələlərin müzakirə edildiyini, tibb sahəsində dünyada əldə olunmuş nailiyyətlər barəsində ətraflı məlumat verildiyini bildirdi. Dünyanın məşhur alimlərinə Bakıya gələrək öz zəngin təcrübələrini bölüşdüklərinə görə minnətdarlığını bildirən akademik "dəyirmi masa"da aparılan müzakirələrin öz bəhrəsini verəcəyinə əminliyini ifadə etdi.

Sonda IV Bakı Beynəlxalq Humanitar Forumunun Bəyannaməsi qəbul olundu.

## Dördüncü Bakı Beynəlxalq Humanitar Forumunda son dərəcə aktual məsələlər müzakirə edildi



Dördüncü Bakı Beynəlxalq Humanitar Forumunda son dərəcə aktual məsələlər müzakirə edildi.

Bu sözləri IV Bakı Beynəlxalq Humanitar Forumunun iştirakçısı, kimya üzrə Nobel mükafatı laureatı Kurt Vütrix AzərTAc-a müsahibəsində deyib.

Bildirib ki, Bakıda keçirilən bu Forum böyük əhəmiyyət daşıyır. Çünki burada müxtəlif mədəniyyətlərə malik xalqlar bir araya gəlib.

Azərbaycana ilk dəfə səfər etdiyini deyən qonaq Bakının gözəlliyinin, arxitekturasının onda xoş təəssürat oyatdığını vurğulayıb.

# 2011-2014-cü illərdə rezidenturaya qəbulun nəticələri müzakirə edilib

**Azərbaycan Tibb Universitetinin (ATU) Tədris-Cərrahiyyə Klinikasında 2011-2014-cü illərdə rezidenturaya qəbulun nəticələrinə həsr olunan tədbir keçirilib.**



ATU-nun rektoru, Milli Məclisin deputatı, akademik Əhliman Əmiraslanov tədbiri açaraq təkcə rezidentura ilə yox, bütövlükdə imtahanlarla əlaqədar bir müzakirənin aparılmasına zərurət yarandığını vurğulayıb: “Qəbul qaydalarını, imtahanların aparılma qaydalarını bir də nəzərdən keçirmək məqsədilə testləri hazırlayan mütəxəssisləri bura dəvət etmişik. Bu, çox vacib məsələdir. Çünki o testləri hazırlayan ekspertlər də sizsiniz. Bilirəm ki, Tələbə Qəbulu üzrə Dövlət Komissiyası ilə daim əlaqədəsiz, yəni universitet bu işlərə qarışmır və test suallarını da siz hazırlayırsız. Rezidentura sisteminin ölkədə təşkili ilə əlaqədar bizdə çox görüşlər olubdur. 10 il bundan qabaq biz bu barədə müzakirələr aparsaq da, təəssüf ki, prosesin reallaşması çox gecikdi. Səbəbləri isə sizə yaxşı məlumdur. Ancaq yeni təhsil qanunu qəbul olunduqdan sonra təhsil nazirliyinin köməyi, qayğısı sayəsində bir neçə ölkənin təcrübəsini Azərbaycana gətirərə bildik. Xüsusilə Türkiyə təcrübəsini öyrəndik. Bu qənaətə gəldik ki, heç bir ölkənin rezidenturaya qəbul və tədrisin aparılması qaydasının olduğu kimi Azərbaycanda tətbiqi mümkün deyil. Nəhayət, 2010-cu ildə rezidentura haqqında əsasnamə təsdiq olundu. Artıq 4-cü ildir ki, rezidenturaya qəbul aparılır. Qəbulun ilk ilində də bir çox təxribatlarla üzləşdik. Biz bunların heç birinə fikir vermədik və bu sistemə keçdik. Səhiyyə naziri Oqtay Şirəliyevə öz təşəkkürümü bildirirəm ki, bu işdə bizi müdafiə elədi.



Rezidentura tibbi təhsildə diplomdan sonrakı təhsildir və təhsilin bir pilləsidir. Burada təcrübəyə üstünlük verilsə də, nəzəri cəhəti də unutmamalıyıq.

Azərbaycan Tibb Universiteti üzrə 4 il ərzində 635 nəfər rezidenturada təhsil alıbdır. Məzunların ən çox müraciət elədiyi ixtisas sahələri terapiya, stomatologiya, cərrahiyyə, mama-ginekologiyadır. Sanitariya-gigiyena sahəsində boş yerlərimiz də qalır. Əldə edilən uğurlara baxmayaraq rezidenturaya sənəd verən tələbələrin səviyyəsi bizi hələ də tam qane etmir və düşünürəm ki, bu istiqamətdə görüləsi işlərimiz çoxdur”.

Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının (TQDK) sədri Məleykə Abbaszadə toplantı iştirakçılarını ATU-nun bu möhtəşəm klinikasında salamlamaqdan məmnunluğunu dilə gətirərək bildirib ki, mühit dəyişəndə mahiyyətin də dəyişməsi qaçılmazdır. Bilik və təcrübənin həkim üçün nə qədər vacib olduğunu xatırladan Məleykə xanım test imtahanlarının Azərbaycanda tətbiqinin ilkin məqsədindən də danışıb. Qeyd edib ki, ilk məqsəd qiymətləndirmə aparılanda insan faktorunun təsir göstərməməsi və korrupsiyanın aradan qaldırılması olub. Sonrakı illərdə test imtahanlarının təkmilləşdirilərək indiki səviyyəyə çatdırıldığını söyləyən Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədri əsas diqqəti 2011-2014-cü illərdə rezidenturaya qəbulun nəticələrinə yönəldib.

Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının şöbə müdiri Natiq Əliyev, Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Aparatının rəhbəri Zəkiyyə Mustafayeva tədbirə toplaşanlara həmin dövrün statistikası ilə bağlı məlumat veriblər. Bildirilib ki, səhiyyəmizin inkişafının əsas istiqamətlərindən biri tibbi təhsil və kadr islahatlarıdır. Nazirlər Kabinetinin 2010-cu il 18 mart tarixli sərəncamı ilə təsdiqlənən “Təhsil haqqında” Qanuna uyğun olaraq 2011-ci ildə ilk dəfə rezidentura vasitəsilə 37 ixtisas üzrə həkimlərin hazırlığına başlanıb. Birinci il imtahanlarda 1.063 namizəd iştirak edibsə (onlardan 819-u 2011-ci ilin məzunları olub), 2014-cü ildə imtahanlarda 1.414 namizəd iştirak edib və onların 666 nəfəri builki məzunlardır.

Rezidenturaya imtahanlar iki mərhələdə keçirilir. Test imtahanları ilk mərhələdə əsas fənlər üzrə, ikinci mərhələdə isə ixtisas üzrə keçirilir. Bundan əlavə, gələcəkdə imtahanların üçüncü mərhələsinin - simulyator və manekenlərdə təcrübənin keçirilməsi planlaşdırılır.

**Arif MƏMMƏDLİ**

# TƏHSİL NAZİRLİYİNİN NÜMAYƏNDƏLƏRİ 600-DƏN YUXARI BAL TOPLAYAN I KURS TƏLƏBƏLƏRİ İLƏ GÖRÜŞÜBLƏR

***Oktyabrın 3-də Tədris-Cərrahiyyə Klinikasında təhsil nazirliyinin nümayəndələri Azərbaycan Tibb Universitetinin I kurs tələbələri ilə görüşüblər. Görüşə universitetimizə yüksək balla qəbul olunan tələbələr, müvafiq fakültələrin dekanları və əməkdaşları qatılıblar.***



Universitetin tədris işləri üzrə prorektoru, professor Sabir Əliyev Təhsil nazirliyi nümayəndələrinin 600-dən çox bal toplayan tələbələrlə görüşə gəlməsini yüksək qiymətləndirərək universitet rəhbərliyi adından onlara təşəkkürünü çatdırıb. Görüşün əsas məramının bu tələbələrin hər birinin gələcək fəaliyyətini diqqətdə saxlamaq olduğunu bildirən prorektor Azərbaycan Tibb Universitetinin tarixi inkişaf yolundan söhbət açaraq professor-müəllim heyətinin tərkibi haqqında da məlumat verib.

Boloniya prosesinin tədrisin qaydalarında yeni tələblər qoyduğunu deyən S.Əliyev qiymətləndirmədəki fərqliliklərə toxunaraq universitetdə ayrıca Virtual Test Mərkəzinin fəaliyyət göstərməsinin üstünlüklərindən danışıb. O, tibb təhsilinin əməli vərdişlərin və bacarıqların öyrədilməsi ilə aparıldığını vurğulayaraq bu məsələlərə ciddi yanaşmağın zəruriliyini önə çəkib.

IV qrup üzrə 600-dən çox bal toplayan tələbələrin böyük əksəriyyətinin bizim universiteti seçdiyini söyləyən prorektor I kurs tələbələrini ilk uğurları münasibətilə təbrik edib, bu uğurların gələcəkdə də davam etdiriləcəyinə əminliyini bildirib.

Təhsil nazirliyinin aparat rəhbərinin müavini Yaqub Piriyev ilk növbədə görüş iştirakçılarına təhsil naziri Mikayıl Cabbarovun salamlarını çatdıraraq bu il tələbə adı qazanan gəncləri təbrik edib. Bildirib ki, IV qrupda 11000 abituriyent iştirak edibdir. Onların 406 nəfəri 600-dən çox bal toplayıb. 360 nəfər 600-dən çox bal yığan abituriyent Azərbaycan Tibb Universitetini seçibdir ki, bu da çox böyük bir rəqəmdir. Respublikamızda digər ixtisas qruplarında 400-ə yaxın 600-dən çox bal toplayanların nəticəsi 2 faizə yaxındır. Sizin qrupda isə bu nəticə 4 faizi keçmişdir. 600-dən çox bal yığan tələbələriniz 30 faizdən çoxdur: “Qeyd etmək istəyirəm ki, qəbul olunduğunuz ixtisaslar ölkəmiz



üçün prioritet təşkil edir və bu ixtisaslar gələcək karyeranızın başlanğıcıdır, mürəkkəb səhifələrindən biridir. Ölkəmizin iqtisadiyyatı sürətlə inkişaf edir. O cümlədən elm və ali təhsil sahəsində də inkişaf vardır. Əsas hədəflərimizdən biri də ali təhsil səviyyəsində tədrisin keyfiyyətinin yüksəldilməsidir. Bu gün əmək bazarında, o cümlədən tibb əmək bazarında böyük boşluqlar vardır. O boşluqları doldurmaq üçün biz əmək bazarında rəqabətə davamlı kadr hazırlığı aparmalıyıq. Bunun üçün tək müəllimlər yox, siz tələbələr də çalışmalısınız. Təhsil nazirliyində tədrisin kredit sistemi ilə təşkili barədə 348 N-li bir qərar qəbul olunub. Bu qərar indiyədək qəbul olunan qərarlarla müqayisədə çox pozitiv bir qərardır. Yeni qərar tələbələrə imkan verir ki, qiymətləri aşağı olduqda onu yüksəltmək imkanı qazansınlar”.

Yeni standartların hazırlandığını vurğulayan Təhsil nazirliyinin rəsmisi “2007-2015-ci illərdə Azərbaycan Respublikası gənclərinin xaricdə təhsil proqramı”nın bu gün də həyata keçirildiyini söyləyib. Qeyd edib ki, bu proqramla 3000 tələbə oxuyur ki, onlardan 900-ə yaxını tibb təhsilli tələbələrdir. Çünki ölkəmiz üçün prioritet olan bu sahəyə böyük həcmdə vəsait ayrılır.

Tədris hissəsinin müdiri dosent Nəsimi Qasımov, tibbi profilaktika və tibbi biologiya fakültəsinin dekanı dosent Aydın Məmmədov, hərbi tibb fakültəsinin tədris məsləhətçisi t\x polkovnik leytenantı Məharət Rzayev və I kurs, 42b qrup tələbəsi Rövşən Əsgərov da çıxış edərək öz fikirlərini bölüşüblər. Tədrislə bağlı mövcud qaydalara edilən dəyişikliklərə, fərqlənmə diplomunun hansı meyarlarla verilməsinə və təkrar yay dinləmələri zamanı ortaya çıxan çətinliklərə də aydınlıq gətirilib.

Axırda tədbir iştirakçılarının sualları cavablandırılıb və tələbələrə paylanan sorğu vərəqləri doldurulub.

Görüşdə Təhsil nazirliyinin ali təhsil sektorunun müdiri Natiq İbrahimov da iştirak edib.

**A.KAMRANOĞLU**

Fotolar Cənnətalı Çingizindir

# Tədris-Terapevtik Klinikada Trombosit toplamağa imkan verən yeni cihaz quraşdırılıb

**Bir neçə ay bundan əvvəl Azərbaycan Tibb Universitetinin Tədris-Terapevtik Klinikasında hematologiya şöbəsi fəaliyyətə başlayıb. Bu şöbə universitetin rektoru, akademik Əhliman Əmiraslanovun təşəbbüsü sayəsində yaradılıb.**



Tədris-Terapevtik Klinikanın hematologiya şöbəsinin həkimi Valeh Hüseynovun dediyinə görə, burada xəstələrə yüksək səviyyəli tibbi xidmət göstərilir, onlara müasir avadanlıqların köməyi ilə daha dəqiq diaqnoz qoyulur, müalicə təyin edilir: “Hazırda dünya təbabətinin əsas hədəflərindən biri hematoloji xəstələrin yüksək səviyyədə müalicə almasını təmin etməkdir. Bunlardan biri də yüksək dozalı kimyəvi preparatlarla müalicə fonunda xəstələrə sümük iliyinin və ya periferik qandan kök hüceyrələrinin köçürülməsidir. Bunun üçünsə hematoloji şöbədə yardımçı bölmələr olmalıdır”.

V.Hüseynov bildirir ki, artıq ATU-nun Tədris-Terapevtik Klinikasındakı hematologiya şöbəsindən belə bölmə - aferez bölməsi mövcuddur. Bunun üçün Klinikaya Belçikanın “Terima” şirkətinin müvafiq avadanlığı gətirilib. Eyni zamanda, bu cihazın vasitəsilə gələcəkdə periferik qandan kök hüceyrələrini toplayıb xəstələrə kök hüceyrə köçürə biləcəyik. Bu da bizim qarşıdakı hədələrimizdən biridir”.

Qeyd edək ki, trombositləri toplamağa imkan verən belə cihaz regionda ilk olaraq ATU-nun Tədris-Terapevtik Klinikasında quraşdırılıb.

**ATU-nun mətbuat xidməti**

# Attestasiya Komissiyasının üzvləri ilə görüş olub

**Oktyabrın 13-də Azərbaycan Tibb Universitetində "Rezidentlərin 2014/2015-ci tədris ili üzrə yekun attestasiyasının keçirilməsi barədə" Səhiyyə naziri cənab Oqtay Şirəliyevin 11.09.2014-cü il 93 saylı əmri ilə bağlı müzakirələr aparılıb.**



Attestasiya Komissiyasının üzvlərinin iştirakı ilə keçirilən tədbiri komissiyanın sədri, millət vəkili, akademik Əhliman Əmiraslanov açıb. Əhliman müəllim rezidentura pilləsində səviyyəli və bacarıqlı mütəxəssislərin hazırlanmasının vacibliyinə toxunaraq bu sahədə qazanılmış uğurlardan danışıb. Bildirb ki, rezidenturaya qəbula düşən test sualları hərtərəfli müzakirə olunub, mövcud çatışmazlıqlar və qüsurlar aradan qaldırılıb.

"Əvvəllər 10 baza üzrə mütəxəssislər hazırlanırdısa, hazırda bazaların sayı 37-yə çatıb. Bunun idarə edilməsi çətinlik yaratdığından savadlı mütəxəssislərin hazırlanmasına nəzarət edən bir qurumun yardımlasına ehtiyac var. Yəqin bu barədə hansısa səviyyədə qərar veriləcək"-deyən sədr respublika üzrə 1500 rezidentdən 600-ə yaxınının tibb sahəsi üzrə rezident olduğunu tədbir iştirakçılarının diqqətinə çatdırdı. Çıxışı zamanı rezidentlərin hazırlanmasında bir sıra çatışmazlıqların olduğunu bildirən sədr yaxın gələcəkdə bu istiqamətdə təsirli tədbirlərin görüləcəyini də qeyd etdi. Akademik Ə.Əmiraslanov rezidentlərin hazırlanmasında xarici ölkələrin, o cümlədən Türkiyə təcrübəsinin ölkəmizdə tətbiqinin yaxşı nəticələr verəcəyinə də toxundu. Oktyabrın 14-15-də 2 və 3 illik qəbul üzrə keçirilən imtahanların hazırlıq səviyyəsi ilə maraqlanan Əhliman müəllim komissiya iştirakçılarına bir sıra tövsiyələrini verərək onlara gələcək işlərində uğurlar arzuladı.

Qeyd edək ki, bu il 37 ixtisas üzrə 202 nəfər rezidenturaya qəbul edilib və 70 rezident xarici ölkələrdə (Türkiyə, Almaniya, Çin, İsveç və s.) rotasiya keçib. Bu il cəmi 94 nəfər rezident yekun attestasiyasında iştirak edəcək və onlardan 35 nəfəri ATU-nun rezidentləridir.

**Qabil ABDULLAYEV**

# Lider doğulmurlar, lider olurlar

Lider olmaq üçün müəyyən çətinliklərə hazır olmalı, inanılmaz istək nümayiş etdirməli və bacarıqlı olmalısan. Hər bir xüsusiyyət ayrıca pillədir. Hazır olmadan arzu və bacarıq mərhələsinə keçmək mümkün deyil. Əvvəlcə insanlara əsl lider üçün hansı keyfiyyətlərin tələb olunduğunu başa salırlar, sonra təhsil prosesi başlayır və yalnız bundan sonra insan liderlik keyfiyyətləri əldə edir.

AzərTAc "Psych Central" saytına istinadla xəbər verir ki, İllinoys Universitetinin mütəxəssisləri lider olmaq istəyənlərə 15 həftəlik kurs çərçivəsində liderlik keyfiyyətləri öyrədiblər. Kurs başa çatandan sonra onların çoxu özlərində tədbirlər təşkil etmək, insanları idarə etmək və auditoriyanı əldə saxlamaq bacarığı hiss ediblər.

Alimlər bu qənaətə gəliblər ki, insanlar liderlik keyfiyyətlərini tərbiyə və müstəqil inkişaf prosesində əldə edirlər. İnsanlara rəhbərlik etmək və onları idarə etmək qabiliyyətini çox az halda (təxminən insanların üçdə birində) genlər şərtləndirir. İnsanların 70 faizi bu bacarığı şəxsi təcrübəsi ilə əldə edir.

# Tibb və fiziologiya üzrə 2014-cü ilin Nobel mükafatı laureatlarının adları açıqlanıb




◆ **İsveçin paytaxtı Stokholmda Nobel Mükafatları Komitəsi ənənəyə uyğun olaraq elm sahəsində 2014-cü il üzrə Nobel mükafatı laureatlarının adlarını açıqlayıb.**

Oktyabrın 6-da İsveçin Karolinsk İnstitutu ilk olaraq tibb və fiziologiya üzrə Nobel mükafatı laureatlarının adlarını açıqlayıb. **http://www.nobelprize.org/** saytının məlumatına əsasən, 2014-cü il fiziologiya və tibb üzrə Nobel mükafatına "Beyində mövqe müəyyənləşdirmə sisteminə cavab verən hüceyrələrin kəşfi"nə görə ABŞ-Britaniya alimi Con O'Keefe və norveçli 2 alim - May-Britt Moser və Edvard Moser cütlüyü layiq görülüb. Mükafatın yarısı Con O'Keefeyə, yarısı isə norveçli cütlüyə verilib. Bu üç alim birlikdə beyində "GPS" sistemini xatırladan və insanlara məkanda istiqamətlənməyə, mövqe tutmağa kömək edən beyin hüceyrələrini kəşf ediblər. Nobel Mükafatları Komitəsinin açıqlamasında qeyd olunur ki, "onların işi kəllə beynində sinir hüceyrələrinin necə mürəkkəb bir intellektual prosesdən keçdiyini göstərib". Onlar beyində insanın fəzada mövqeyini müəyyənləşdirən hüceyrələr tapıblar. İsveç Nobel Mükafatları Komitəsinin məlumatında qeyd olunur ki, alimlərin kəşfi filosofların və alimlərin əsrlərlə düşündükləri problemi həll edir: "Beyin bizi əhatə edən fəzanın xəritəsini necə yaradır? Biz bu mürəkkəb ətraf mühitdə yolumuzu necə tapa bilirik?". Kəşf olunan hüceyrələr beyində mövqenin müəyyənləşməsi sisteminə cavab verir. Bu sistem beyində "daxili GPS sistemidir". 1971-ci ildə O'Keefe ilk dəfə sistemin ilk hissəsini-xüsusi hüceyrələri kəşf edib. Bu hüceyrələr xəritəni yaratmağa kömək edir. Con O'Keefenin tələbələri Edvard və May-Britt Moserlər isə 2005-ci ildə beyin toxumasında daha bir hüceyrə tipi (grid-cells) aşkar ediblər. Bu hüceyrə koordinasiya və istiqamət sisteminin yaradılmasına xidmət edir. Onların kəşf etdiyi hüceyrələr koordinasiya sistemini yaradır. Alimlərin tədqiqatları bütün dünyada hər il yüz milyardlarla dollar xərclənən Alzheimer xəstəliyi ilə mübarizədə də böyük rol oynaya bilər. Ekspertlərə görə, alimlər beyində naviqasiya sisteminin fundamental iş prinsipini kəşf ediblər. Bu kəşf yaddaş, təfəkkür və planlaşdırma kimi digər koqnitiv prosesləri anlamaq üçün yeni imkanlar açır. Bu tədqiqat baş-beyinin xəstəliklərinin müalicəsində yeni texnologiyaların işlənib hazırlanmasına inkan verəcək. "Alimlər canlı hüceyrələr daxilində ayrı-ayrı molekulların hərəkət yolunu izləyə biliblər. İndi tam əminliklə molekulların insan beynində necə əlaqə yaratması, Parkinson, Alzheimer və Xantinqton xəstəliklərinin yaranmasında iştirak edən zülalları tədqiq etmək, eləcə də embrionlarda hansı proseslərin getdiyini müəyyən etmək olar",- deyə Nobel Komitəsinin açıqlamasında bildirilir.

Qeyd olunmalıdır ki, bu il tibb və fiziologiya üzrə Nobel mükafatına 263 alimin namizədliyi irəli sürülüb.

* * *

Qeyd edək ki, 2014-cü ilin laureatlarının mükafatlandırılması mərasimi, hər il olduğu kimi, dekabrın 10-da Alfred Nobelin anım günündə keçiriləcək. Qaliblərə mükafatın təsisçisinin əksi təsvir olunmuş qızıl medal, diplom və 8 milyon İsveç kronu və ya 1,2 milyon ABŞ dolları məbləğində pul mükafatı veriləcək.

---



**Con O'Keefe ABŞ**, eyni zamanda Böyük Britaniya vətəndaşlığına malikdir. 1939-cu ildə ABŞ-ın Nyu-York şəhərində anadan olub. Nyu-York Universitet Kollecini və Kanadanın Makginli Universitetini bitirib. 1969-cu ildə Kanadanın Makginli Universitetində fizioloji psixologiya üzrə doktorluq elmi işini müdafiə edib. Daha sonra London Universitet Kollecində fiziologiya doktoru kimi fəaliyyət göstərib. 1987-ci ildə koqnitiv nevralgiya kafedrasının professoru təyin olunub. Con O'Keefe hazırda London Universitet Kollecində neyronların tədqiqi üzrə Mərkəzin direktorudur.

---



**May-Britt Moser** Norveç vətəndaşıdır. 1963-cü ildə Norveçin Fosnavag şəhərində anadan olub. O, gələcək əri Edvard Moser ilə birlikdə Oslo Universitetində psixologiya elmini öyrənib. May-Britt 1995-ci ildə neyrofiziologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi alıb və fəlsəfə doktoru kimi Edinburq Universitetində çalışıb. Daha sonra London Universitet Kollecinə dəvət olunub. O, 1996-cı ildən Tronheym Texniki və Təbii Elmlər Universitetində professor olaraq fəaliyyətə başlayıb. May-Britt Moser hazırda Tronheym "Neural" Mərkəzinin direktorudur.

---



**Edvard Moser** Norveç vətəndaşıdır. 1962-ci ildə Norveçin Olesunn şəhərində anadan olub. 1990-cı ildə Oslo Universitetini bitirib. 1995-ci ildə Oslo Universitetində neyrofiziologiya üzrə doktorluq elmi dərəcəsi alıb. O, həyat yoldaşı May-Britt Moserlə birlikdə əvvəlcə Edinburq Universitetinə, sonra isə London Universitet Kollecinə dəvət alıb. 1996-cı ildə Tronheym Texniki və Təbii Elmlər Universitetində fəaliyyətə başlayıb. 1998-ci ildə universitetin professoru seçilib. O, eyni zamanda Tronheymdə Kavli İnstitutunda "Neuroscience" İnstitutunun direktorudur.

# Bakıda VIII Azərbaycan Beynəlxalq təhsil və karyera sərgisi açılıb

**Oktyabrın 10-da Bakı Ekspo Mərkəzində VIII Azərbaycan Beynəlxalq təhsil və karyera sərgisi ("Education & Career) açılıb.**

AzərTAc xəbər verir ki, təhsil işçilərinin, ictimaiyyət nümayəndələrinin, gənclərin iştirak etdikləri açılış mərasimində təhsil nazirinin müavini Ceyhun Bayramov müasir dünyada təhsilin mühüm rolundan danışıb, Azərbaycan Prezidenti İlham Əliyevin bu sahəyə daim böyük önəm verdiyini bildirib.

Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın əhəmiyyətindən bəhs edən nazir müavini deyib ki, bu Strategiya təhsil sahəsində qarşıda duran çağırışları müəyyən edir.

Ölkəmizdə təhsilin inkişafı üçün səmərəli tədbirlər həyata keçirildiyini diqqətə çatdıran C. Bayramov reallaşdırılan "SABAH" layihəsinin əhəmiyyətini vurğulayıb.

"İteca Caspian" şirkətinin icraçı direktoru Fərid Məmmədov sərgi barədə məlumat verib. Qeyd olunub ki, sərgi "Iteca Caspian LLC" və "Caspian Event Organisers" şirkətlərinin təşkilatçılığı və Azərbaycan Respublikası Təhsil Nazirliyinin və digər müvafiq qurumların dəstəyi ilə təşkil edilib.

Sonra tədbir iştirakçıları sərgi ilə tanış olublar.

Bu il dünyanın 20 ölkəsindən, o cümlədən Azərbaycan, Türkiyə, Böyük Britaniya, Niderland Krallığı, Slovakiya, Rusiya, Latviya, Fransa, Qazaxıstan və Polşadan 122 iştirakçının qatıldığı sərgidə təhsil, "MBA"proqramları, xarici dil kursları, həmçinin təcrübə və treninqlər təklif edilir. Eyni zamanda, sərgidə 22 şirkət ("Azercell Telecom", "Azərsu", "Azərenerji", "Bakcell", "bp", "SOCAR", "Unibank" və s.) bank işi, neft-qaz, telekommunikasiya, maliyyə, hüquq xidmətləri, energetika, satış və marketinq, su resursları, qida və kənd təsərrüfatı sektorlarında iş vakansiyalarını təklif edir.




Burada iştirakçı qurumların və universitetlərin nümayəndələri ilə görüşmək və suallara cavab almaq imkanları da yaradılıb.

Bu il "Bakı-2015" Avropa Oyunlarının Əməliyyat Komitəsi də sərgidə iştirak edərək, gənc və istedadlı insanları "Baku Games 2015" böyük idman bayramı çərçivəsində həyata keçiriləcək işlərə dəvət edəcək.

İki gün davam edən sərgi oktyabrın 12-də başa çatmışdır.

## Universitetinizin komandaları təmsil olunacaq

Bu il oktyabrın 18-19-da Təhsil Nazirliyi və Azərbaycan Respublikası Prezidenti yanında Gənclər Fondunun dəstəyi ilə Azərbaycan İntellektuallar Klubu Asossasiyası tərəfindən "Nə? Harada? Nə zaman?" intellektual oyunu keçiriləcək. Oyunda Azərbaycan Tibb Universitetini "Apoptos" və "İnvictus" komandaları təmsil edəcək.

Bu il noyabrın 12-də Heydər Əliyev Mərkəzi tərəfindən Ümummilli lider H.Əliyevin həyatını, çoxşaxəli fəaliyyətinin və irsinin dərindən öyrənilməsi və təbliği məqsədilə ali təhsil müəssisələrinin tələbələri arasında "Heydər Əliyev və Azərbaycan tarixi" adlı Ümumrespublika bilik yarışı keçiriləcək. Yarışda Azərbaycan Tibb Universitetini bir komanda təmsil edəcək.

Bu günlərdə redaksiyamıza Məmmədova Simnarə tərəfindən sağlamlığımızın keşiyində dayanan həkimlərin ünvanına bir təşəkkür məktubu daxili olub. Məktubda qeyd edilir ki, xəstəlikdən əziyyət çəkdiyi üçün 1 saylı Şəhər Klinik Xəstəxanasına müraciət edir.

## TƏŞƏKKÜR MƏKTUBU

Onu orada gülər üz, isti münasibətlə qarşılayır, qayğısına lazımi şəkildə qalırlar. Buna görə ona lazımi diqqət göstərən, qayğısını üzərindən əskik etməyən Şüa diaqnostika şöbəsinin müdiri Tamara Hacıyevaya, həkim-radioloq Zümrüd Axundzadəyə qəzetimiz vasitəsi ilə dərin təşəkkürünü bildirir. "Şəfalı əlləriniz var olsun!"-deyir.

### Etibarsız sayılır

Pediatriya fakültəsinin V kurs, $565^{b}$ qrup tələbəsi Məmmədov Qədir Şəmsi oğlunun adına verilmiş tələbə bileti və qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin V kurs, $702^{b}$ qrup tələbəsi Hamed Nəcəfi Adilin adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Əczaçılıq fakültəsinin II kurs, $882^{b}$ qrup tələbəsi Mirzəyev Zərdan Arif oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin II kurs, $744^{b}$ qrub tələbəsi Dilek Gözda Gökkılıçın adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin V kurs, $160^{b}$ qrup tələbəsi Soltanova Aytac Ramiz qızının adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

## Dünyanın ən yaxşı 400 universitetinin siyahısı açıqlanıb



**İngiltərənin "Times Higher Education" həftəlik jurnalı və "Thomson Reuters" 2014-2015-ci illər üçün dünyanın ən yaxşı 400 universitetinin siyahısını açıqlayıb.**

APA-nın Hurriyet.com saytına istinadən verdiyi xəbərə görə, Kaliforniyanın Texnologiya Universiteti dördüncü dəfədir ilk sırada yer alıb. Harvard Universiteti ikinci, Oxford Universiteti üçüncü, Standford Universiteti isə dördüncü yeri tutub.

Türkiyənin bir neçə universiteti də dünyanın 200 ən yaxşı universitetləri arasındadır. Onların içində ODTÜ, Boğaziçi, İTÜ ve Sabancı Universitetinin adı var. Belə ki, ODTÜ 85-ci sırada yer alaraq ilk yüzlüyə daxil olub. Boğaziçi Universiteti 139, İTÜ 165, Sabancı Universiteti 182-ci yerdədir. Bilkent Universiteti 201-225, Koç Universiteti 301-350-ci yerdə qərarlaşır.

Qeyd edək ki, 28 ölkədən olan universitetlər müxtəlif kriteriyalara görə qruplaşdırılır.

## Moskvada DST-nin tütünə qarşı mübarizə üzrə Çərçivə Konvensiyası tərəfləri Konfransının 6-cı sessiyası keçirilir

**Moskvada Dünya Səhiyyə Təşkilatının (DST) tütünə qarşı mübarizə üzrə Çərçivə Konvensiyası tərəfləri Konfransının 6-cı sessiyası keçirilir.**



AzərTAc DST-nin saytına istinadən xəbər verir ki, iclasda Konvensiyanın tətbiqi nəzərdən keçiriləcək, protokollar, əlavə və düzəlişlər qəbul ediləcək. Oktyabrın 18-dək davam edəcək sessiyada tütün məmulatlarının qanunsuz ticarətinin aradan qaldırılması, habelə tütünə olan tələbatı azaltmaq, tüstüsüz tütün və elektron siqaretə qarşı vergi tədbirləri ilə mübarizə kimi məsələlər müzakirə olunacaq.

Sessiya oktyabrın 18-dək davam edəcəkdir.

Qeyd edək ki, Çərçivə Konvensiyasının iştirakçı dövlətləri, həmçinin Azərbaycan öz üzərinə bir tərəfdən tütün məhsullarına tələbatın və istifadəsinin azalması ilə, digər tərəfdən isə tütün məmulatlarının idxalına nəzarətlə bağlı qanun işləyib hazırlamaq və qəbul etmək öhdəliyi götürüblər. Azərbaycan Respublikası 2005-ci il sentyabrın 20-də Çərçivə Konvensiyasına qoşulmaq barədə qanun qəbul edib.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır.

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 100
2-ci mərtəbə,
tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya N - 022633
İndeks -0269
Sayı 4000
Sifariş: 188